**“Bir yanımda şəhidlik zirvəsi, bir yanımda övlad acısı"**

**YAP Nərimanov rayon təşkilatı qadınlar şurasının üzvləri şəhid anaları ilə görüşü keçirildi**

Dünən Yeni Azərbaycan Partiyasının Nərimanov rayon təşkilatı qadınlar şurası şəhid anaları ilə görüş keçirdi. Arif Vəliyev adına 258 saylı orta məktəbdə keçirilən toplantı "Bir yanımda şəhidlik zirvəsi, bir yanımda övlad acısı" mövzusuna həsr olunmuşdu. Tədbirdə torpaqlarımız uğrunda şəhid olmuş insanların, o cümlədən, Xocalı soyqırımının qurbanlarının xatirəsi yad edildi.

258 saylı məktəbin direktoru, YAP Nərimanov rayon təşkilatı qadınlar şurasının idarə heyətinin üzvü Sədaqət Hüseynova çıxış edərək, xalqımızın zaman-zaman xarici təcavüzlərə məruz qaldığını bildirdi. S.Hüseynova ötən əsrdə də Azərbaycanın Ermənistan tərəfindən təcavüzə məruz qaldığını söyləyərək, onu da vurğuladı ki, azadlıq yolunda şəhid olan oğul və qızlarımız heç vaxt unudulmayacaq.

"Torpaqlarımızın azadlığı uğrunda minlərlə şəhid vermişik. Vətən uğrunda canından keçənlər ölməyib, şəhidlik zirvəsinə yüksəlib. Bu gün şəhidlərin ruhu bizimlədir. Yalnız qələbə əldə etdikdən sonra onların ruhu şad olacaq" deyən S.Hüseynovanın sözlərinə görə, məktəbin adını daşıdığı Arif Vəliyev də öz həyatını torpaqlarımızın azadlığı uğrunda qurban verib. Onun xatirəsi şəhid olduğu gün- 17 fevral tarixi hər il məktəbdə anılır. Qeyd edib ki, dövlətimiz torpaqlarımızın sülh yolu yolu ilə azad olunması üçün bütün imkanlardan istifadə edir.

YAP Nərimanov rayon təşkilatı qadınlar şurasının sədri Məhəbbət İbrahimova tədbirdə çıxış edərək, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin ağır nəticələrindən danışdı. O bildirdi ki, işğalçı siyasətin nəticəsində xalqımız minlərlə şəhid verib, torpaqlarımızın 20 faizi qəsb olunub, bir milyondan çox insan öz yurdlarından didərgin düşərək, məcburi köçkün vəziyyətinə düşüb. "Ermənistan xarici havadarlarına arxalanaraq, ölkəmizin bir hissəsini işğal edib. Amma bu, o demək deyil ki, biz müharibəni uduzmuşuq. Azərbaycanda o zaman daxili hərc-mərclik nəticəsində ermənilər öz istəklərini, müvəqqəti də olsa, reallaşdıra biliblər. Amma bu gün Azərbaycan çox güclü dövlətdir. Ölkəmizin başçısı İlham Əliyev problemin sülh yolu ilə həllinə tərəfdardır. Ermənistan isə hər vəchlə münaqişənin həllini uzatmağa çalışır. Təbii ki, sülh danışıqları nəticə verməsə, dövlətimiz digər variantlardan istifadə edəcək" deyən M.İbrahimovanın sözlərinə görə, dövlət tərəfindən şəhid ailələrinə, Qarabağ əlillərinə, müharibə veteranlarına qayğı göstərilir.

YAP Siyasi Şurasının üzvü, partiyanın Nəsimi rayon təşkilatının sədri, millət vəkili Məlahət İbrahimqızı da çıxışında Azərbaycanın məruz qaldığı təcavüzdən danışdı. O, qeyd etdi ki, ölkəmizin mühüm geostrateji məkanda yerləşməsi, zəngin təbii sərvətlərə malik olması bəzi xarici qüvvələri narahat edir. Baş verən təcavüz də bu narahatlığın nəticəsidir. Millət vəkilinin sözlərinə görə, Azərbaycanın inkişaf etməsi nəticəsində bir çox problemlər həll edilib. Yeganə problem isə Dağlıq Qarabağ məsələsidir. "Uzun müddətdir ki, münaqişənin həlli istiqamətində sülh danışıqları aparılır. Ermənistanın qeyri-konstruktivliyi nəticəsində problem hələ də həllini tapmayıb. Eyni zamanda, beynəlxalq müstəvidə işğalçı Ermənistana təzyiqlər göstərilmir. Bunula belə, Azərbaycan bu məsələni də həll etmək iqtidarındadır" deyə M.İbrahimqızı qeyd etdi ki, təcavüzə məruz qalmasına baxmayaraq, ölkəmiz inkişaf etməkdədir. Onun sözlərinə görə, əhalinin sosial rifahının gücləndirilməsi istiqamətində dövlət tərəfindən ciddi addımlar atılır. Bu mənada, şəhid ailələrinə də qayğı daim diqqət mərkəzindədir. Şəhid Arif Vəliyevin anası Sona Vəliyeva çıxış edərək, göstərilən qayğıya görə dövlət rəhbərliyinə minnətdarlığını bildirdi.

Görüşdə daha sonra Həsən Abışov, Elmira Əliqızı və digər çıxış edənlər Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində torpaqlarımızın işğaldan azad olunacağına, şəhidlərimizin qanının yerdə qalmayacağına əminlik ifadə etdilər.

Sonda məktəblilərin iştirakı ilə ədəbi-bədii kompozisiya təqdim olundu.

**RƏFİQƏ KAMALQIZI**

**Səs.- 2010.- 18 fevral.- S. 6.**